

Kəmaləddin Qədim

## SAHİBLİK HAQQI YOX QONAĞIN ÜSTDƏ...

Köklə, ürəyini dərdinə köklə,
Din, ağrı-acının, din, ahın üstdə.
Ya ahı sinənə çəkib də bəklə,
Ya da ki, ram elə, min ahın üstdə.

Sən ki, öyrəşmisən lap birincidən,
Daha çətin dəyə, çətin incidə;
Qoy gəlsin lap elə minbirinci də,
Bir ah yük olmaz ki, min ahın üstdə.

Sağ ol, haqq başına təvafa görə,
Üzülmə aldığın cavaba görə.
Nə anam verən var savaba görə,
Nə də dara çəkən günahın üstdə.

Fırlatma sözü də dönüb, döndərib,
Dön bax, arxa qərib, yürü, ön qərib.
Göndərən səni də qonaq göndərib,
Sahiblik haqqı yox qonağın üstdə...

## TOZ BASIB ÜSTÜNÜ XATİRƏLƏRİN...

Deyirlər çoxalıb işvən bir az da,
Naz gəlib bir az da nazın üstünə.
Mənsə üşüyürəm gülüm, bu yazda,
Payız gətirmişəm yazın üstünə.

Adicə duyğumu bu duyğu görən,
Neynəsin bu qəfil soyuğu görən?
Axı, nə yatdım ki, nə yuxu görəm,
Ta yoxun nəyini yozum üstünə?..

Gəl də gör şəstini xatirələrin;
Yapmışam büstünü xatirələrin.
Toz basıb üstünü xatirələrin,
Adını yazmışam tozun üstünə...

## KİMSƏ UNUDUB GEDİB...

Kimi itirmişəm mən,
Könlüm kimin yasında?
Vaxtın bir küncündəyəm,
Ömrün astanasında...

Nətəhər Kərəməm ki,
Nə Əslim, nə Lələm var.
Nə "ithürən" görünür,
Nə də "işıqgələn" var...

Ovu əlindən çıxan
Ovçuya bənzəyirəm.
Çən-dumanda yol azan
Yolçuya bənzəyirəm.

Nə məscid haya yetir,
Nə dada kilsə gəlmir.
Unutmuşam nə varsa,
Yadıma kimsə gəlmir...

Əlac, çarə at üstdə,
Dərdim piyada qalıb.
Əl açmışam Allaha,
Əlim havada qalıb...

Yapışmağa ətək yox,
Əl yoxdu tutub gedim.
Məni yolayrıcında
Kimsə unudub gedib...

## GÜNAHI YAZAN MƏLƏK

Gördüyü günahdı, şərdi ki, görür,
Tanrı qarğıdığı yerdi ki, görür.
Çəkdiyim bu boyda dərdi ki, görür,
Görür sinəmdəki min ahı, yazmır.

Oxuyan varmı ki, necəmi yazır,
Başımdan olanı-keçəni yazır.
Çarəsiz döndüyüm gecəni yazır,
Ümidsiz qalxdığım sabahı yazmır.

Sinəmdə daş oldu yazammadığım,
Üstümdə baş oldu bacarmadığım.
Özüm öz əlimlə qazanmadığım
Boynuma yıxılan günahı yazmır.

İtirib başını apaçıq mələk,
Daha çox insandı, azacıq mələk.
Vallah, mənə çəkib bu yazıq mələk,
Mənimtək bir bilir Allahı, yazmır...

## ALLAHDI, ŞEYTANDI, MƏNƏM...

Şad ol, könlüm, meracındı,
Bu da son ünvandı, mənəm...
Qorxma, ölüm araçındı,
Bir quruca candı, mənəm...

Özümün qurbanı özüm,
Dərdi mən, dərmanı özüm.
Çəkirəm karvanı özüm,
Gedirəm, sarvandı, mənəm...

Bu da bir cür tamaşadı,
Oynadım güldürdüm yadı.
Bu Laçındı, bu Şuşadı,
Aralıqda qandı, mənəm...

Baxma əlində lələkdi,
O məndən betərin çəkdi.
Mələyin adı mələkdi,
Çevirsən, uvandı mənəm...

Dağılmış yeri fanidi,
Üstündə diri fanidi.
Üçündən biri fanidi:
Allahdı, şeytandı, mənəm...

## YIXILIB ÖLƏSƏN NAZIN ÇƏKİLƏ...

Ha istə, gözlə ki, haqq gələ bir gün,
Yığıla yollardan gözün çəkilə...
Başa bər-bəzəkli çuxan keçməyə,
Sözün layiq ola, sözün çəkilə...

Gedənlər birşeylər uydurub gedə,
Nə fərqi sübh gedə, ya qürub gedə...
Gedə, cocuq yapıb, ev qurub gedə
Yanından oğulun, qızın çəkilə...

Yurda üz tutasan, üz, götürməyə,
Dağ qəbul etməyə, düz götürməyə.
Götürmür, çoxunu göz götürməyə,
Barı, heç olmasa azın çəkilə...

Başının altında balışın artıq,
Yatıb da yuxuya qalışın artıq.
Nola, car olmaya yanlışın artıq,
Doğrun anlaşıla, düzün çəkilə...

...Daha yaşamağa üz də qalmayıb,
Düz oğlu düz nə vaxt düzdə qalmayıb?..
Görəsən, çəkməyə naz da qalmayıb,
Yıxılıb öləsən nazın çəkilə...

## GÖYƏRTMİR

Bu yaz gecikib gəlib,
Bağça-bağı göyərtmir.
Gör, hələ nə gündədi
Solu, sağı göyərtmir.

Bir yağmurun acıdı,
Çarəsi, əlacıdı.
Çox da ki baş tacıdı,
Duman dağı göyərtmir.

Nə vaxt bir səfər çıxır,
Önə dərd-kədər çıxır.
Bir gözəl xəbər çıxıb
Qaş-qabağı göyərtmir.

Uyarın qardaşları,
Yozdursunlar başları.
Onsuz da göz yaşları
Bir yanağı göyərtmir...

## YIXILIB ÖLDÜYÜM YERSƏN

Sən mənim hər gün azalıb,
Çıxılıb öldüyüm yersən.
Elə korun-korun yanıb,
Yaxılıb öldüyüm yersən.

Kətil olub, dar olduğum,
Əlacsız, naçar olduğum.
Bir cürə düçar olduğum,
qaxılıb öldüyüm yersən.

İncisi, dürrüsən yerin,
Azadı, hürrüsən yerin.
Ən gözəl yerisən yerin,
Sığınıb öldüyüm yersən.

Gözlər belə qan ağlamaz,
Gedər əldən can, ağlamaz.
Özü yıxılan ağlamaz,
Yıxılıb öldüyüm yersən...

## ÖZÜMƏ

Təzə dərd gətirəcək,
Təzə şeir gözləmə.
Zərər verirəm ancaq,
Məndən xeyir gözləmə.

Tutub əlindən, canım,
Qaçırım hara səni?
Qorxuram göz yaşlarım
Yuyub apara səni.

Üzə də bilməyirsən,
Get, Allah yarın olsun.
Kağızdan gəmi düzəlt,
Qələm avarın olsun...

## DURUM GEDİM DARIXMAĞIN DALINCA...

Qoşub sənə, uçub sənə gəlmişdim,
Durum gedim darıxmağın dalınca...
Gör nələrdən keçib sənə gəlmişdim,
Durum gedim darıxmağın dalınca...

Xəyal ilə solum, sağım gözəlmiş,
Xəyal elə dağım-dağım gözəlmiş.
Səndən yana darıxmağım gözəlmiş,
Durum gedim darıxmağın dalınca...

Dəlilikmiş sevda, bir cür dəlilik,
Bu sevdayla sövdə bir cür dəlilik.
Çöldə bir cür, evdə bir cür dəlilik,
Durum gedim darıxmağın dalınca...

Bir şey ki yer, göy qatı da sevgidi,
Həyatı da, siratı da sevgidi.
Darıxmağın bir adı da sevgidi,
Durum gedim darıxmağın dalınca...

## NƏDƏN GÖYƏRMƏYİR BALIŞIN...

Təklikdən baş alıb gedişinmi,
Ya onunla baş-başa qalışın gözəl?
Gözləyə-gözləyə payıza çəkdin,
Payıza bənzədin sarışın gözəl.

Mələksən, dursan da adam yerində,
Alınmır bilirəm qadan yerində.
Nazın yerindədi, ədan yerində,
Savaşın gözəldi, barışın gözəl.

Göz yolda, qulaq da səsdə, beləmi,
Bir ömür qalırlar yasda beləmi?..
Beləmi gedirlər dosta, beləmi,
Beləmi Tanrıya varışın, gözəl?

Doymursan bu nə sirr göz yaşlarından,
Nə gəlir, nə keçir göz yaşlarından?
Bu boyda su içir göz yaşlarından,
Nədən göyərməyir balışın, gözəl?..

